**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN XALÇAÇILIĞINDA BƏDİİ-TEXNİKİ VARİSLİK PROBLEMİ

| | |
|---|---|
| İxtisas: | 6218.01 - Dekorativ-tətbiqi sənət |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Məmmədhüseyn Allahqulu oğlu Hüseynov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Siruz Yadulla oğlu Mirzəzadə**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Günel Tofiq qızı Seyidəhmədli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Asya Əlimövsüm qızı Şirəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Xalq rəssamı, professor
**Fuad Məmməd-Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri: Xalq rəssamı, professor
**Arif Möhübəli oğlu Əzizov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xalçaçılıq sənətinin nə zaman, harada yaranması bir çox alimləri düşündürmüş və tədqiqatlara sövq etdirmişdir. Onlardan bəziləri çoxəsrlik inkişaf tarixinə malik xalçaçılıq sənətinin təşəkkül tapdığı məkanlardan biri kimi, qədim Azərbaycan ərazilərini göstərməklə bir çox tarixi həqiqətlərə işıq salmışlar.

Zaman-zaman bədii-texniki ənənələri ilə şöhrət tapmış Azərbaycan xalçaçılığı böyük təkamül yolu keçmiş və xalqımızın dünya görüşünə həm də həyat tərzinə qaynayıb qarışmışdır. Hazırda bədii-texniki cəhətlərinə görə dörd böyük növə (Quba – Şirvan, Gəncə – Qazax, Qarabağ və Təbriz) ayrılan Azərbaycan xalçaçılığı keçmişdən bəri ən sadə toxuculuq üsulları da (dəri, keçə, həsir və s.) daxil olmaqla mədəni irsimizə və etnoqrafiyamıza zənginlik gətirən sənət növüdür.

Bu baxımdan Azərbaycan xalçaçılığının daxili strukturunu təşkil edən həm texniki, həm də bədii sistemini əsaslı şəkildə tədqiq etmək onun aktuallığını saxlamaqdadır. Burada mövzunun seçilməsi də, mühüm elmi əhəmiyyət kəsb edir. Çünki xalçaçılıq sənətimizi varislik ənənəsi əsasında tədqiq etməyin mühüm aspektləri vardır. Bunlardan başlıcası Azərbaycan xalçaçılığının bədii-texniki sisteminin təşəkkül tapmasında xalqın dünyagörüşünün təfəkkürə təsirinin öyrənilməsidir.

Xalçaçılığın elmi müstəvidə müxtəlif və aktual mövzular altında tədqiq olunması yaradıcılıq istiqamətində yeni-yeni, rəngarəng bədii xalça üslublarının yaranmasına təsir göstərdi. Xalq rəssamları L.Kərimov, K.Əliyev, E.Mikayılzadə, A.Rəcəbov, Əməkdar rəssamlar T.Bəşirov, M.Hüseynov və başqalarının yaratdıqları çeşidli xalça əsərləri varislik ənənələrinə söykənməklə milli sənətimizə töhfələr vermişdir.

Xalçaçılığımızın bədii-texniki varislik problemi ümumiləşmiş sistemdə tədqiq olunmasa da, Azərbaycan xalçaları haqqında müəyyən məlumatlar müxtəlif məqalə və nəşrlərdə öz əksini tapmışdır. Vaxtilə Azərbaycanda Abbasqulu Ağa Bakıxanov[1], Yusif

---

[1] Bakıxanov, A.A. Gülüstani-irəm / A.A.Bakıxanov – Bakı: Xatun PLYUS, – 2010, – 302 s.

Vəzir Çəmənzəminli[2] kimi maarifpərvər ziyalılarımızın əsərlərində Azərbaycan türklərinin milli sənətə bağlılığı və incəsənətimizin zirvəsi kimi dəyərləndirilən xalçaçılığımız barəsində yüksək fikirlər qeyd olunmuşdur.

Avropada H.Ühleman[3], K.Erdman[4] və P.Stone[5] kimi tədqiqatçılar Azərbaycanda ərsəyə gələn xalçaçılığı, Qafqaz kontekstində öyrənməklə onların bədii – texniki cəhətlərini təhlil edərək əvəzsiz nümunələr hesab etmişlər.

Təəssüflər olsun ki, Azərbaycan xalçaçılığı barəsində qeyd olunan qədim məlumatların və mənbələrin az qismi indiki dövrə gəlib çatmışdır. Müəlliflərdən Herodot[6], Ksenofont[7], Ptolomey[8], Moisey Kalankaytuklu[9], Əl Müqəddəsi[10], Mühəmməd Əl Təbəri[11], İbn Hövqəl[12] və başqalarının məlumatlarında xalçaçılığımızın uzaq keçmişdəki şan-şöhrəti, saray və məbədlərin bəzəyi olması haqqında müxtəlif qeydlər vardır.

Azərbaycan xalçaçılığında bədii-texniki varislik problemi üzərində konkret olaraq işlənməmişdir. Lakin müxtəlif mövzulu tədqiqatlarda bilavasitə bu problemə toxunmuş tədqiqatçılar da az olmamışdır.

---

[2] Çəmənzəminli, Y.V. Əsərləri. [3 cilddə] / Y.V.Çəmənzəminli – Bakı: – 2005, – 440 s.

[3] Uhleman, H. Geographie de orientteppichs / H.Uhleman – Leipzig. K.W.Hiersemann – 1930 – 135 s.

[4] Kurt, E. Der orientalische knüpfteppich. Versuch einer Darstellung seiner Geschichte / E. Kurt – Tübingen – 1960 – 78 s.

[5] Stone F. Peter. Tribal and Village Rugs. Thames & Hudson / Peter. F. Stone – London, first published in the United Kingdom in 2004 – 350 p.

[6] Геродот. История / Геродот – Москва: АСТ, – 2009, – 670 с.

[7] Ксенофонт, М / Киропедия – Москва: Наука, – 1976 – 335 с.

[8] Птоломей. География. Перевод В.В. Латышева // Вестник Древней Истории – 1948, том II – 341 с.

[9] Kalankaytuklu, M. Alban tarixi / M. Kalankaytuklu – Bakı: Elm – 1993 – 272 s.

[10] Mukaddesi, A. Ahsan at Taqasim fi Ma’rifat al Aqalim / descriptio imperii moslemici, ed. M.J. d`Goeje, BGA (Bibliotheca Geoqraphorum Arabicom), III, leiden – 1877– 508 p.

[11] Taberi, M.D. Tarikh al-ulum va-l-muluk, edited M.J. de Goeje, Lriden 1890-1901, BGA – c. I-V – pp. 21-24.

[12] İbn, H. X asır İslam Coğrafiyası. Çevireni R. Şeşen / H. İbn – İstanbul: Yeditepe Yayınları – 2014 – 448 s.

M.D.İsayevin XIX əsrin sonu – XX əsrin əvvəllərində apardığı tədqiqatın mərkəzində Azərbaycan xalçaçılığının inkişaf tarixi, təbii mühit və təsərrüfat həyatının sosial amilləri dayanır. Digər tərəfdən başqa tədqiqatçılar kimi, M.D.İsayev də Azərbaycan xalçalarının dünyanın müxtəlif ölkələrində məhşurlaşmasını onların yüksək bədii-texniki xüsusiyyətlərilə izah etmişdir[13].

XX əsrin ortalarında Azərbaycan xalçaçılığının sənətşünaslıq baxımından tədqiqi bu sənətin mahir bilicisi Lətif Kərimov tərəfindən başladıldı. O, Azərbaycan xalçaçılığının növ və qruplara görə təsnifatının elmi sistemə salınmasında əvəzsiz xidmət göstərmişdir. Azərbaycanın geniş xalçaçılıq ocaqlarını gəzib dolaşan L.Kərimov yaşlı xalça ustalarından qədim naxışları toplamış, xalq dilində onlara verilən adların gələcək nəsillərə ötürülməsi üçün üç cilddə "Azərbaycan xəlçəsi"[14] və "Азербайджанский ковер" (II[15] və III[16]) kitablarını yazmışdır. Bu kitablarda müəllif Azərbaycan xalçalarının toxunduğu məntəqələr və bədii-texniki xüsusiyyətlərinin əsas cəhətlərini vermişdir.

Xalçaya yaradıcılıq dəst-xətti gətirən sənətkarlarımızdan biri də Cəfər Müciri olmuşdur. Onun "Azərbaycan xalçaçılığının texnoloji üsulları" [17] kitabı xalçaçılıq sənətinin tədrisində əhəmiyyətli rol oynamışdır.

1971-ci ildə Nəcibə Abdullayevanın yazdığı "Ковровое искусство Азербайджана" [18] kitabında Azərbaycanın müxtəlif yerlərində toxunmuş XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid olan bir çox xalçalarımızın bədii cəhətləri, həm də peşəkarlıq sayəsində

---

[13] Исаев, М.Д. Ковровое производство Закавказья / М.Д. Исаев – Издание научно-исследовательского института Кавказоведения Академии наук СССР – Тифлис: II Типография Полиграфтреста Грузии – 1932– 224 с.

[14] Kərimov, L. Azərbaycan xəlçəsi. C.I. / L.Kərimov– Bakı, Leninqrad: Azərbaycan SSR EA-nın nəşriyyatı. – 1961. – 94 s.

[15] Керимов, Л. Азербайджанский ковëр [в 3-х томах] / Л.Керимов – Баку: Гянджлик – 1983, т.II – 276 с.

[16] Керимов, Л. Азербайджанский ковëр [в 3-х томах] / Л.Керимов – Баку: Гянджлик – 1983, т. III – 448 с.

[17] Müciri, C. Azərbaycan xalçaçılığının texnoloji üsulları / C.Müciri – Bakı: Maarif – 1987 – 200 s.

[18] Абдуллаева, Н. Ковровое искусство Азербайджана / Н.Абдуллаева – Баку: Элм – 1970 – 150 с.

ərsəyə gəlmiş ornamental xalça nümunələrinin tədqiqi əks edilmişdir. 1980-ci illərdə Anaxanım Əliyevanın "Ворсовые ковры Азербайджана XIX – начало XX века"[19] adlı kitabında da həmin dövrlərə aid xovlu xalçalarımızın bədii-texniki xüsusiyyətləri əsas təhlil obyektinə çevrilmişdir.

Görkəmli alim Kübra Əliyevanın tədqiqatlarında XVII əsrdən başlayaraq XX əsrə qədər toxunmuş Azərbaycanın xovsuz xalçalarının bədii-texniki xüsusiyyətlərinin araşdırılması sənətşünaslıq elmi üçün olduqca əhəmiyyətlidir. Onun akademik Rasim
Əfəndiyevlə həmmüəllifi olduğu "Azərbaycanın xalı və xalçaçılıq terminləri lüğəti"[20] adlı kitabı da xalça tədqiqatçıları üçün dəyərli mənbələrdəndir.

Azərbaycan xalçaçılığının keçdiyi inkişaf yolu tariximizin keçmiş dövrlərindən başlayır. Bu yolun izlənilməsində mövcud araşdırmaların, tədqiqatların komplimentarlığı ilə birlikdə, xalçaçılıq mədəniyyətimizi dünyanın elmi ictimai və mədəni mühitinə təqdim etmək məqsədilə Röya Tağıyeva 1999-cu ildə "Azərbaycan xalçası"[21] kitabını çap etdirmişdir. Onun Azərbaycan xalçaçılığının ənənəvi terminlərindən bəhs edən "Azərbaycan xalçası məişətdə"[22] adlı kitabını da xüsusilə qeyd etmək lazımdır.

Digər xalça tədqiqatçıları – Xədicə Əsədovanın "Azərbaycan xalça naxışlarının semantikası və bədii xüsusiyyətləri"[23], Mətanət Abdullayevanın "Azərbaycan dilində xalçaçılıq leksikası"[24] adlı tədqiqat işləri də, maraq yaradan mövzulardandır. Bundan başqa sənətşünaslıq üzrə fəlsəfə doktorları Dürdanə Qədirova, Arzu

---

[19] Алиева, А. Ворсовые ковры Азербайджана XIX начало XX века / А.Алиева – Баку: Элм – 1987 – 144 с.

[20] Əfəndi, R. Azərbaycanın xalı və xalçaçılıq terminləri lüğəti / R.Əfəndi, K.Əliyeva – Bakı: Elm – 1998 – 252 s.

[21] Tağıyeva, R. Azərbaycan xalçası / R. Tağıyeva – İstanbul: A4 - offset – 1999 – 259 s.

[22] Tağıyeva, R. Azərbaycan xalçası məişətdə / R. Tağıyeva – Bakı: Tutu – 2006 – 143 s.

[23] Əsədova, X.V. Azərbaycan xalça naxışlarının semantikası və bədii xüsusiyyətləri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı: – 2011 – 21s.

[24] Abdullayeva, M. Azərbaycan dilində xalçaçılıq leksikası / M. Abdullayeva – Bakı: Qismət – 1998 – 160 s.

Zeynalova və digərləri xalçaçılığımızın tədqiq olunması istiqamətində təqdirəlayiq tədqiqatlar aparmışlar.

Azərbaycan xalçaçılığının tədqiqində beynəlxalq konfransların və simpoziumların əhəmiyyəti də çox böyükdür. 1983-cü ildə Bakı şəhərində keçirilən "Şərq Xalça Sənəti" üzrə Beynəlxalq simpozium Azərbaycan sənətşünaslığı üçün mühüm irs qoymuşdur. Bu simpoziuma dünyanın müxtəlif ölkələrindən dəvət almış alimlərin məruzələri 1987-ci ildə çap olunmuş elmi toplunun[25] materiallarını təşkil edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalçaçılığımızı dünyaya tanıtdırmaq üçün beynəlxalq konfranslar və simpoziumlar keçirmək bir ənənəyə çevrildi. Əsasən xalçaçılığımızın təbliğ və təşviqində Azərbaycan Milli Xalça Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikovanın əməli təşəbbüsləri ilə "Türk dünyasının ortaq dilli – naxışlar" kontekstində keçirilən beynəlxalq konfrans və simpoziumlar sənətşünaslığımızın inkişafına müsbət təsir göstərməyə başladı.

Məşhur "Halı"[26] jurnalının səhifələrində Azərbaycan xalçalarının ayrı-ayrı nümunələrinə yer ayrılması xalçaçılıq sənətimizin təbliğinə xüsusi təsir göstərir.

Son illərdə nəşr olunmuş "Azərbaycan xalçaları" adlı jurnal xalçaçılığın təbliği və təşviqində əvəzsiz rol oynamışdır. Bu jurnalda dünyada tanınmış xarici xalçaşünasların Azərbaycan xalçaları barədə məqalə və monoqrafiyalarının Azərbaycan dilində dərc olunması isə tədqiqatçılara böyük səmərə vermişdir. Onlardan Cen Bennet[27], Ulrik Şurman[28], Ralf Kaffel[29], Marino

[25] Искусство восточных ковров // Материалы международного симпозиума по искусству восточных ковров. 5–11 сентября 1983 г. – Баку: Элм – 1988 – 444 с.
[26] An integral part of life // Halı 192. Summer – 2017 – p.36-37.
[27] Bennet C. Şərq xalçaları. I hissə: Qafqaz // Azərbaycan Xalçaları – 2013. Cild 3, № 6 – s.131-143.
[28] Şurman U. XVIII-XIX əsrlərdə Qafqazın müxtəlif bölgələrində xalçaçılıq sənətinin müfəssəl təqdimatı // Azərbaycan Xalçaları – 2013. Cild 3, № 7 – s.124-143.
[29] Kaffel R. Qafqaz "namazlıq"ları // Azərbaycan Xalçaları – 2013. Cild 3, № 8 – s.108-143.

Dall'Oglio[30], Con M. Duqlas, M.D.Suen. Peters[31], Robert Pinner, Michael Franses[32] və başqalarını göstərmək olar.

Lakin Azərbaycan xalçaçılığı haqqında aparılmış elmi-tədqiqat işlərinin, çoxsaylı məqalələrin, dissertasiyaların və monoqrafiyaların yazılmasına baxmayaraq, Azərbaycan xalçaçılığında bədii-texniki varislik problemi öyrənilməmişdir. İndiyə qədər Azərbaycan xalçaçılığı barəsində əcnəbi tədqiqatçıların araşdırmalarında, əsasən xalçalarımızın regionlara görə ümumi, bədii, estetik təsvirlərinin həm də onların kolleksiyalara əmtəə olunması problemlərinin həllinə üstünlük verilmişdir. Azərbaycan sənətşünaslığında isə varislik probleminə müxtəlif istiqamətlər üzrə yanaşıldığından tədqiqatlarda sistemsizlik daha çox nəzərə çarpmaqdadır.

Məhz bu baxımdan tədqiq olunma səviyyəsinə görə Azərbaycan xalçaçılığında bədii-texniki varislik probleminin həllində ətalət yaranmış və problemin sistemli ardıcıllıq prinsipindən irəli gələrək həllini zəruri etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müxtəlif texniki üsullarla toxunub ərsəyə gəlmiş ən məşhur xovsuz və xovlu xalça nümunələri təşkil edir. Keçmiş əsrlərdən bəri xalça naxışlarımızı formalaşdıran kodlu işarələr və damğalar isə həmin nümunələrin obyekti qismində tədqiq olunur.

Tədqiqatın predmetini Azərbaycan xalçaçılığı və onu əmələ gətirən bədii- texniki xüsusiyyətlərin varislik ənənələri kontekstində üzə çıxarılması təhlilləri və fundamental kanonların müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini Azərbaycan xalçaçılığında bədii-texniki varislik ənənələrinin əsas prinsiplərinin tədqiq olunması və xalçaçılığımızın miras olaraq formalaşmasında mühüm rol oynayan amillərin sistemli şəkildə

---

[30] Marino Dall'Oglio. Ağ yerlikli "əjdahalı" xalça: Naxışların və uyğun müqayisələrin araşdırılması // Azərbaycan Xalçaları – 2014. Cild 4, № 12, – 144 s. "Halı", Cild II, yaz, 1979. s. 106-111.

[31] John M. Douglass, M.D.Suen. Peters.Şərq xalçalarının dəyərləndirilməsi və simvolikası // Azərbaycan Xalçaları – 2015. Cild 5, № 14, – 144 s. "İtirilmiş dil". I hissə- Tərcümə: Dilbər Qasımova. s. 76-107.

[32] Robert Pinner & Michael franses "Halı" // Azərbaycan Xalçaları – 2015. Cild 5, № 17, – 144 s. № 1. 1978. s.130-144.

izlənilməsi probleminin həlli təşkil edir. Qeyd edilən məqsədə çatmaq üçün aşağıda sadalanan məsələlərin həlli nəzərdə tutulur:

– Azərbaycan ərazisində qədim xalçaçılığın təşəkkülünə zəmin yaradan təbii-coğrafi amilləri təhlil etmək;

– İbtidai toxuculuq materialları və ipin əldə olunması ilə yanaşı, xalçaçılığımızın ən qədim rəng dilinin qurulmasında varislik ənənələrini tədqiq etmək;

– Qədim xalçaçılığı formalaşdıran texniki avadanlıqların və müxtəlif üsulların əmələ gəlməsində mifik izlərin varislik ənənələri ilə əlaqəsinin tədqiqi;

– Xalçaçılığımızda dəri, keçə və həsir sənətinin bədii, texniki xüsusiyyətlərini üzə çıxarmaq;

– Azərbaycan xalçaçılığında qədim texniki üsulların mənşəyində duran varislik ənənələrinin təhlili və etno-mədəni təsirləri tədqiq etmək;

– Azərbaycan xalçaçılığının bədii – ornamental sisteminin əsasını təşkil edən təməl prinsiplərini tədqiq etmək;

– Xalçaçılığımızın naxış sisteminin əsas qaynağı olan damğaların Azərbaycan türklərinə məxsusluğunun sübutu və mənimsənilmə meyarlarını tədqiq etmək;

– Azərbaycan xalçaçılığında inanclarımızın və mifoloji bədii obrazların varislik ənənələrinə səciyyəvi olan xüsusiyyətlərini tədqiq etmək;

– Azərbaycan xalçaçılığında bədii-texniki varislik ənənələrini özündə əks etdirən kanonlaşmış bəzi xalı–xalça nümunələrimizə müəyyən təhlillər vermək;

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsaslarını tarixi-etnoqrafik, etimoloji və tipoloji ardıcıllığa söykənməklə bərabər, həm də müasir sənətşünaslıq elminin sistemli yanaşma təhlillərindən ibarət olan metodlar təşkil edir. Dissertasiya işi metodoloji olaraq sistemli analiz tələb edən araşdırma prinsiplərinə əsaslanır. Burada xalçaçılığımızın bədii və texniki xüsusiyyətlərini müəyyənləşdirən aspektlər varislik ənənələri və onun etnogenezisini üzə çıxaran metodoloji şərtlərə dayanır.

Tədqiqat üzərində iş zamanı seçilmiş metodologiyadan irəli gələrək, materialın təkcə xalı–xalça nümunələri üzərində deyil, eyni

zamanda onu formalaşdıran texniki və bədii meyarların bir-birinə bağlılığını tam və hissə anlayışı çərçivəsində araşdırılmasına daha çox üstünlük verilib.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

Qədimdən bəri bədii-texniki amillərdən irəli gələrək varislik ənənələri üzərində formalaşmış Azərbaycan xalçaçılıq sənəti tədqiqat obyekti olaraq seçilmiş aşağıdakı müddəalardan qaynaqlanır:

– Azərbaycan xalçaçılığının bədii-texniki xüsusiyyətləri coğrafi mühitə, yaylaq – qışlaq həyat tərzinə və qoyunçuluq təsərrüfatının formalaşmasına uyğun olaraq təkamül tapır;

– Azərbaycan xalçaçılığında ipin və digər materialların əldə olunması və rəng sisteminin əmələ gəlməsi bədii-texniki amillərə və varislik ənənələrinə söykənirdi;

– Azərbaycan xalçaçılığına müvafiq olaraq müxtəlif texniki üsulların meydana gətirdiyi ənənəvi xovsuz və xovlu toxuculuğa aid etno-mədəni anlayışlar varislik ənənələrinə əsaslanır;

– Azərbaycan xalçaçılığının varislik ənənələrində vəhdət təşkil edən bədii aspektlər damğa və naxış sənətinin inkişafında inanclardan, mifoloji baxışlardan və tayfa münasibətlərindən qaynaqlanan fikir sisteminə uyğun olaraq müəyyənləşir;

– Mədəni irsimiz üçün səciyyəvi olan cəhətlər müasir Azərbaycan xalçaçılığında varislik ənənələrinə müvafiq olaraq izlənilir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi problemin aktuallığı ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

– Azərbaycan xalçaçılığında bədii-texniki varislik probleminin sistemli və kompleks şəkildə tədqiq olunması;

– qədimdən bəri formalaşmaqda davam edən, Azərbaycan xalçaçılığı üçün səciyyəvi, eyni zamanda varislik probleminin həllində mühüm rol oynayan materialların, alətlərin və toxuculuq üsullarının mənşəyinin milli etnoqrafiyamızda əksini tapan xüsusiyyətlərlə bərabər aşkarlanması;

– qədim qoyunçuluq və yunçuluq təsərrüfatından irəli gələrək, Azərbaycanda cinsləşmə prosesinin “ip” və “rəng” dilinin yaranmasına təsiri ilə bağlı varislik ənənələrinin tədqiq olunması;

– qədim Azərbaycan ərazisində xalçaçılıq sənətini əmələ gətirən, lakin unudulmuş ip, rəng və texniki üsulların bədii sistemlə qarşılıqlı əlaqəsini formalaşdıran əsas meyarların tədqiqata cəlb olunması;

– qədim Azərbaycan xalçaçılığının rəng dilinin "ikili", "üçlü", "beş və yeddilik" sistemə uyğun olaraq elmi təhlillərinin aparılması və cədvəlləşdirilməsi;

– Azərbaycan xalçaçılığında texniki üsullara görə etno-etimoloji təhlillərə müvafiq olaraq sistemləşmə cədvəllərinin qurulması;

– qədim Azərbaycan xalçaçılığında bədiiliyi aşılayan ibtidai naxış və işarə sisteminin varislik ənənələrinə görə tədqiqinin elmi cəhətdən əsaslandırılması;

– xalçaçılığımızın bədii quruluşunu təşkil edən ən qədim naxış qruplarının inanclarımızla və mifoloji aspektlərlə bağlılığına işıq salacaq araşdırmaların aparılması;

– xalçaçılığımızda tayfa münasibətlərini əks etdirən damğa və naxış yaradıcılığının əsas meyarlarının varislik ənənələrinə görə təhlili və sənətşünaslıq elminə müvafiq olaraq əsaslandırılması;

– xalçanın məişət və həyatımızda əxlaqi təsirə malik olan rəmzi naxışlarının milli folklorumuzla müqayisəli təhlillərinin varislik ənənələrinə müvafiq olaraq aparılması;

– dissertasiya üçün seçilmiş şəkillərdə ayrı-ayrı naxışların təsvirləri ilə yanaşı, müxtəlif tarixi dövrlərə aid klassik xalçalarımızın bədii-simvolik təsvirlərini şərh edən üsullarla verilməsi və axtarış şərtlərinə uyğun olan yeni tədqiqat metodunun göstərilməsi;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi Azərbaycan xalçaçılığında bədii, texniki varislik probleminin həlli istiqamətində xalça sənəti vasitəsilə dekorativ-tətbiqi sənət tariximizin elmi cəhətdən zənginləşməsinə, həm də milli-mədəni irsimizi özündə əks etdirən nəzəri və praktiki əhəmiyyətə malikdir.

Dissertasiyada yer almış elmi faktlar nəzəri olaraq, Azərbaycan xalçaçılığının mahiyyətini və onun varislik ənənələrindəki rolunun əhatəli şəkildə izlənilməsini, semiotik və etno-etimoloji tədqiqatlarda isə qaynaq kimi istifadəsini faydalı edəcəkdir.

Ümumilikdə, tədqiqat işindən təhsil ocaqlarının müxtəlif sahələrində istifadə mümkündür. Əsasən, dekorativ-tətbiqi sənət və sənətşünaslıq sahəsində təhsil alan tələbə və gənclər bu tədqiqatdan həm nəzəri, həm də praktiki olaraq elmi biliklər əldə edə bilərlər. "Ornament tarixi", "Materialşünaslıq", "Layihələndirmə", "Stilizə və dekor" və başqa bu kimi fənlərin keçirilməsində tədqiqat işindən dərs vəsaiti səviyyəsində istifadə etmək böyük fayda verə bilər.

**Aprobasiyası və tətbiqi.** Mövzu üzrə araşdırmanı əks etdirən məruzələr respublikada, həmçinin respublikadan kənarda keçirilən 7 beynəlxalq elmi konfransda, simpoziumlarda dinlənilib. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 8 məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrası.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya mündəricat, giriş, üç fəsil, yeddi paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: Giriş – 8 səh., 1.1. – 16 səh., 1.2. – 16 səh., 2.1. – 16 səh., 2.2. – 17 səh., 3.1. – 16 səh., 3.2. – 16 səh., 3.3. – 17 səh., Nəticə – 5 səh. olmaqla dissertasiyanın ümumi həcmi 239403 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən 14 cədvəl və şəkillərdən ibarət albom isə dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktual olması əsaslandırılmış, onun məqsədi və qarşıya qoyulan vəzifələri, müddəaları müəyyən edilmiş, elmi yeniliyi, həmçinin strukturu, həcmi barədə məlumatlar öz əksini tapmışdır.

Dissertasiyanın **"Azərbaycan xalçaçılıq sənətinin təşəkkülü varislik ənənələrində"** adlı **I fəslinin "İbtidai toxuculuq materialları və ipin əldə olunmasının xronoloji xüsusiyyətləri"** adlı **1-ci paraqrafında** qeyd olunur ki, Azərbaycan erkən mədəniyyət ocaqlarından hesab olunur və əlverişli təbii-coğrafi şəraiti, zəngin fauna

və floraya malik münbit torpaqları olan, həm qoyunçuluğun həm də ibtidai xalçaçılıq sənətinin yarandığı ərazidir. Burada hələ Mezolit dövrünün sonlarında insanlar "hörmə", "sadə keçirmə" və "bağlama" kimi texniki üsulları kəşf etmişdilər. Amma toxuculuğun əmək növü kimi kəşfi Azərbaycan ərazisində Neolit dövrünə təsadüf etsə də, zaman keçdikcə toxuculuq materiallarının tərkibinin, alət və sadə toxuculuq qaydalarının təşəkkülü Eneolit dövründə bu sənətin inkişafına təkan verdi.

Azərbaycan ərazisində erkən Tunc dövrü Kür-Araz mədəniyyəti adlanır. Bu dövrdə ən mühüm yenilik yarımköçəri və ya yaylaq maldarlığının yaranması idi ki, bu da qoyunçuluğun yayılmasına və yunçuluğun genişlənməsinə səbəb oldu.

Əsrlər ötdükcə Azərbaycan ərazisində onlarla qoyun cinsinin yetişdirildiyi mənbələrdə qeyd olunmuşdur. Bunlardan ən geniş yayılmışı qədim "tərəkəmə", "boza" və "Qarabağ" adlı cinslərdir. Qarabağ cinsi bozax, Şirvan və başqa yerli qoyun cinslərinin təşəkkül tapmasında ana cins rolunu oynamışdır.

Hər bir qoyun cinsinin özünəməxsus yun keyfiyyəti onun qaba, yarımzərif, zərif, sıx və parlaq yunlu adlanması həm də tərkibinin əlamətlərini bildirirdi. Rənginə görə isə qoyunlar ağ, qara, sarı, qırmızı, qızılı, boz, qumral, göy, çal, mor, bənəviş, ala və digər rənglərdə olurlar. Bununla yanaşı qədim Azərbaycan toxuculuğunda dəvə yunundan, ipək və pambıqdan da istifadə edilirdi.

**İp** xalçaçılığın əsasıdır. Onun hazırlanması toxuculuq materialının xammal şəklində əldə edilməsindən sonra başlayır. Ən qədim dövrlərdən bəri ipin düzəldilməsi təbii proseslər əsasında öyrənilmiş və xammaldan tədarükə doğru inkişaf yolu keçmişdir.

"İp" sözü bitkilərdən və ya yundan əmələ gələn materialın adıdır. Bu sözün etimologiyası maraq doğurur. Birhecalı olduğundan qədim sözlərdən hesab olunur. Sözün "i" səsi tərkib etibarilə incə və ya incik hərəkəti, "p" səsi isə sıxlığı və dartılmanı bildirir. Bu baxımdan "ip" sözü uzadan, aralayan, artıran mənasına gəlir. İp düzəltmək üçün ibtidai alətlər və onların təkmilləşməsi əsrdən-əsrə keçərək formalaşmışdır. İpi əmələ gətirən qədim əmək alətləri əsasən, yun darağından, iydən, tağalaqdan və cəhrədən ibarətdir.

Azərbaycan ərazisində ən qədim iy alətləri arxeoloji qazıntılar zamanı tək-tək və ya tağalaq aləti ilə birgə tapılır. Təbiətdə bəzi bitkilərin "iy"ə bənzər iynəsi mələklərin tale toxuyan aləti kimi təbərrük hesab edilirdi. Bir çox tayfalarda həmin bitkilərin iynəsi indi də nəzər və gözdəyməyə qarşı müxtəlif yerlərə sancılır və stilizə olunmuş naxış nümunələri xalçaları bəzəyir.

Azərbaycanda "ip" və "ipəyirmə"nin semantik anlamları arasında dölləyici missiya ilə əks olunan bir nümunə də yunçuluqla bağlı olub, ip əyirən zaman oxunan dualar idi. Bundan başqa yunun dartışdırılması ilə bağlı indi də xalçalarımızda "daraq", "yun darağı", "qarmaq", "qarmaqlı", ən başlıcası isə "damğa" kimi tanınan "pıtraq" adlı naxışlar ipəyirmə mədəniyyətini bədii dildə əks etdirməkdədir.

Əl əməyi hesabına, kustar üsulla ip əyirən əcdadlarımız iy və tağalağın daha mükəmməl, həm də tez işləməsi üçün "cəhrə" adlı mexaniki qurğunu kəşf etdilər. İndi də ədəbi və təsvir simvollarının içərisində "cəhrə"nin "çarx" olaraq kosmoqonik fikirlərə bənzərlik verən obrazı qalmaqdadır.

Dissertasiyanın **I fəslinə** aid **2-ci paraqrafında** "**Azərbaycan xalçaçılığının rəng dili və boyaq ünsürləri"**nin mənşəyi, semiotik rəng sisteminin varislik ənənələri kontekstində araşdırılması mühüm yer tutur. Məlumdur ki, xammaldan ipin alınması prosesindən sonra boyanma üçün hazırlıq mərhələsi başlanır ki, bu da boyaq ünsürlərinin əldə edilməsi ilə bağlıdır.

Hələ qədim dövrlərdən təbiət toxuculuq üçün təbii rəngli qamış, dala, çətən, kətan, pambıq, ipək və unudulmuş digər bitki mənşəli xammallardan fərqli olaraq, heyvan yunlarının təbii rəng çalarları sayəsində əcdadlarımıza zəngin rəng ahəngdarlığını əldə etmək fürsətini bəxş etmişdir.

Bu cəhətdən Azərbaycan xalqının düşüncəsində və estetik zövqündə yer alan rənglərin hər biri qədim xalçaçılıq sənətimizdə semantik zənginliyə mənsubdur.

**Xalçaçılığımızın rəng dili** Azərbaycan xalçaçılığı üçün təsadüfi amillərlə bağlı deyil və qədim ənənələrə əsaslanır. Bunun əsası isə təbiətin özündədir: qurulma və dağılma; gündüz və gecə; doğuluş və ölüm; sevinc və kədər; qələbə və məğlubiyyət; isti və soyuq; dayazlıq və dərinlik kimi əksliklər rəngli iplərin dilində ifadə oluna bilir. Onlar

bir-birinin içində təmasda olduqları qədər, həm də ayrı-ayrılıqda görünmək sifətinə malikdirlər.

Bu baxımdan iplərin rənginə və rəmzlərinə görə Azərbaycan xalçaçılığının varislik ənənələrinin tədqiqində “yeddi rəng” mühüm əhəmiyyət kəsb edir.

**“Qara rəng”**li iplər esxatoloji aləmdə Azərbaycan türkləri üçün müqəddəs hesab olunur. Onun xalçaçılıqda tək halda istifadə olunması sirlilik, qeyb və matəm rəmzi kimi, ikili rəng sistemində duallığı, üçlü rəng sistemində isə naxışların kənarını əhatələyərək bütövlük anlamını verir.

Yeddirəngli kanon üzrə **sarı-qızılı** rəngli iplər Azərbaycan xalçaçılığının strukturunda xüsusi yer alır, “qüvvət, güc”, “cəsarət”, “mərdlik” və “igidlik” mənalarını ifadə edir. Xalçaçılıqda sarı-qızılı iplərdən “işıq” və “od” kultunu ifadə edən günəşi, “təmiz, saf və pak” mənasında suyu, “uca, yüksək, geniş və dik” mənasında qayaları, qışlaqları, çölləri və dağları simvolizə edən motivləri toxumuşlar.

**“Yaşıl rəng”**li iplər Azərbaycan xalçaçılığında yeddirəngli kanona daxildir və təbiətin oyanma rəngidir. Xalçaçılıqda ikili və üçlü rəng sistemi üzrə geniş istifadə olunsa da, onu hər dəfə ağ, qara və boz rəngli iplərin yanında verməklə təbiət kultunu ifadə edən fəlsəfi məqamlarla bağlayırlar və doldurucu elementlərin toxunmasında istifadə edirlər.

**“Qırmızı rəng”**li iplər Azərbaycan xalçaçılığının rəng sistemində ana xətti təşkil edir. Qırmızı, rənglər arasında mərkəzi rol oynayaraq yaradıcı ünsürdür. “Od” kultunu ifadə edən qırmızı rəng mənfi və müsbət təsirliliyini “od”un xüsusiyyətlərindən alır.

Azərbaycan xalçaçılığında qırmızı iplər rəng dilinin açarı, həmçinin “əlvanlıq” fəlsəfəsinin ruhi cövhəridir. Qırmızı rəng yeddirəngli kanonun orta həddini tənzimləyir və Azərbaycan xalçaçılığının ən mənalı rəngidir.

**“Göy rəng”**li iplər Azərbaycan xalçaçılığında yeddirəngli kanona aiddir.

Əsasən, soyuq rəng rolunu oynayan göy-mavi iplər xalçaçılıqda isti rəngli iplərin yerləşdirilməsində və rənglərarası əlaqənin daha uyğun qurulmasında ən çox üçlü rəng sisteminə xarakterikdir.

“Göy” – yer üzərində mavi qübbə kimi görünən fəza, boşluq deməkdir[33] və Azərbaycan xalçaçılığında səma cisimlərini ifadə edən motivləri təsvir edərkən, göy rəngli ipləri əsas yerliklərdə istifadə edirlər.

**“Şəkəri rəng”** Azərbaycan xalçaçılığında sarımtıl-ağ rəngli iplərə verilən ənənəvi adlardandır. Xalçaların rəng dilinə şuxluq, parlaqlıq və əlvanlıq verən şəkəri rəng yeddirəngli kanona görə altıncıdır.

Şəkəri rəng işığa, nura və aydınlığa işarədir. Bu səbəbdən Azərbaycan xalçaçılığının rəng sistemində şəkəri rəngli iplər özünəməxsus rəmzləri ifadə edir.

**“Ağ rəng”**li ip Azərbaycan xalçaçılığında yeddirəngli kanona daxildir. “Ağ” və ya “dümağ” adlanan iplər təbii yundan əldə edilsə də, onların ağardılması qədim təcrübələrə əsaslanır.

Azərbaycan xalçaçılığında ağ rəngli ip tək, ikili və üçlü rəng sistemində istifadə olunur və əsrlərlə püxtələşmiş rəng sistemində sonsuzluğu ifadə etməklə yeddirəngli kanonda sonuncu sütun kimi yer alır.

Xalçaçılıqda istifadə olunan ağ iplər ixtiyarı olaraq müəyyən simvolları əhatə etmək xüsusiyyətinə malik olub, ululuğun, evin, çadırın, ya da otağın ağlığını simvolizə etməklə həm də atalar kultunu göylər və ruhlar aləminə bağlayır.

Dissertasiyanın **“Azərbaycan xalçaçılığını formalaşdıran texniki üsullar və etno-mədəni təsirlər varislik ənənələrində”** adlı **II fəslin 1-ci paraqrafında “Texniki avadanlıqlar dəri, keçə və həsirçilik sənəti xalçaçılığımızın özəyi kimi”** tədqiq olunur. Azərbaycan xalçaçılığında toxuculuq üsulları “texniki üsul” və ya “texnoloji üsullar” adlanır. Xalçaçılığımızı ərsəyə gətirən texnoloji proseslər tarixi mərhələlər keçməklə, dörd əsas toxuculuq üsulunu formalaşdırmışdır. Bunlar: Salma-döymə, keçirtmə, dolama və ilməvurma üsullarıdır. Xalça toxuculuğu üsulları rəngli iplərlə yanaşı, dəzgah, həm də müxtəlif əmək alətləri vasitəsilə meydana gəlir.

Azərbaycan xalçaçılığına məxsus əmək alətlərinin düzəldilməsi və ayrıca olaraq dəzgahdüzəltmə işi varislik ənənələrinə söykənir.

---

[33] Azərbaycan dilinin izahlı lüğəti [4 cilddə] – Bakı: Şərq-Qərb – 2006 (I c. – 744 s.) (II c. – 792 s.) (III c. – 672 s.) (IV c. – 712 s.) s. 270.

Keçmişdən bəri Azərbaycan xalçalarının bədii tərtibatında çarx (cəhrə), hana, kirkit, daraq və qayçı kimi təsvirlər toxuculuq sənətini xarakterizə edir. Bəzi xalça nümunələrində isə "həvə" və "daraq" naxışları düzlük, saflıq, həm də yağış anlamına gəlir.

**Dəri sənəti** xalçaçılığın əmələ gəlməsinin ibtidai rüşeymi hesab olunur. Dəri, yunu ilə birlikdə təbii məhsuldur. Qədim insanlar dərini ayinlər keçirərək ov edib əldə edirdilər.

Azərbaycan xalçaşünaslığı tarixinin öyrənilməsində dəri ilə bağlı geniş tədqiqatlar yoxdur. Lakin qədim Azərbaycanda "heyvan dərisi" inanclara və mifik aləmə söykənməklə, müxtəlif rəmzləri ifadə etmişdir. Bu baxımdan qoyun, keçi, maral və buğa dərisindən düzəldilən nalça və səccadə dərviş dərgahlarında şeyxlik məqamının göstəricisi idi.

Dəri təsvirli xalça kompozisiyalarında dərvişilik və sufizm əlamətlərinin və ya rəmzlərinin olması faktı da, bu inanclardan qaynaqlanır.

Keçmişdə Azərbaycanı **"Türk tayfaları və keçə yurdlar"** məkanı kimi tanıtdıran ənənəvi keçəçilik sənəti olmuşdur. Ən qədim keçə nümunələri Pazırık kurqanlarından çıxarılsa da, qədim Azərbaycan ərazisində də keçə əldə etməyin müxtəlif üsulları olmuşdur.

Keçəhazırlama texnikası "salma-döymə" texnikasına aiddir və ən ibtidai texniki üsul hesab oluna bilər.

Keçədən olan yurtanın (çadır, alaçıq) xüsusi rəng və damğalarla işlənməsi isə hər bir boyun və tayfanın özünəməxsusluğunun göstəricisi olub, onun qürur və şöhrətini ifadə edirdi və tayfa adlandırılmalarından da təsirsiz ötüşməmişdir.

Vaxtilə qara keçə Qarabağda "qara ev", "qara keçə" adlandırılmışdır. "Qara ev" və ya "qara keçə" adlanan alaçıq "böyük ev" mənasını ifadə edirdi[34]. Hətta qarakeçili (qara keçəli) tayfalarının adı ilə bağlı "Qaraqoyunlu" "Qaraqaşlı","Qarakeçili", "Qarayazı" kimi xalça kompozisiyaları da mövcuddur.

Azərbaycan xalçaçılığında **burma - hörük üsulu** xüsusi yer tutur. Bu texnika toxuculuğun ibtidai üsuludur. Bitkilərdən və

---

[34] Xəlilov, X.D. Qarabağın elat dünyası / X.D.Xəlilov – Bakı: Azərnəşr – 1992 – s.87.

heyvanlardan alınan məhsul burulma və hörülmə üsullarının hesabına ip halına salınır. Bu baxımdan müasir dövrdə xalçaların əriş və arğaclarının burulması SZ və ya ZS kimi işarələnir.

Texniki baxımdan Azərbaycan xalçaçılığının tədqiqində **"keçmə və ya keçirtmə üsulu"** çox önəmlidir. Bu üsul arğac iplərinin başdan-başa əriş iplərinin arasından keçirilməsi ilə əmələ gəlir. Bəzi ibtidai xovsuz xalça nümunələri sadə və mürəkkəb keçirtmə üsullarına aiddir. Həsir, buriya, çətən, palaz, cecim, kilim, qədirqə, damalı şəddə və s.

**Həsir** toxuculuğu bunların arasında ən qədim növlərdən biridir. Qamışdan, lıq və nizədən toxunan həsirçiliyə bədii-texniki varislik prinsipləri nəzərindən yanaşdıqda zəngin etnoqrafik cəhətlərlə qarşı-qarşıya qalırsan. Azərbaycanda alaçıqların və evlərin yerinin əvvəlcə həsirlə döşənməsi rütubətdən qorunmaqla bağlı olsa da, yerli xalq bu adətə həm də ritual xarakterli münasibət bəsləmişdir. Qədim türk əsatirlərində qamış və lığ bitkisinin yağmur ayinləri ilə bağlılığına aid elementlərin olması da bu səbəbdəndir.

Fəslin **"Texniki xüsusiyyətlərinə görə xalçaçılıq növlərində türk tayfa adları və mifik izlər"** adlı **2-ci paraqrafında** tədqiqat nəticəsində bəlli olur ki, bəzi xovsuz xalça nümunələri tayfa mədəniyyətlərini əks etdirir və onların həyat tərzi ilə səsləşir. Belə nümunələrin arasında ilkin növlərdən biri **palaz** adlanır. Əsrlərlə Azərbaycanda palaz toxuculuğunun təkcə texniki tərəfi deyil, həm də bədii cəhətləri varislik ənənələri üzərində nəsildən-nəslə ötürülərək inkişaf etmişdir. Palaz toxuculuğuna şöhrət gətirmiş Oğuz tayfalarından olan padarlar qədimdən bəri ona həm texniki, həm də bədii baxımdan müxtəlif zənginlik qatmışlar.

**Cecim** toxuculuğu da "sadə keçirtmə" texnikasının geniş yayılmış növlərindən biridir. O, azərbaycanlıların həyatında və məişətində önəmli təyinatlara malik idi. "Cecim" və ya "cedilim" sözü köçəri şahsevən və ya qədim xatay, yaxud qaşqay tayfalarından birinin adı ilə bağlansa da, səslənməsindən aydın olur ki, bu söz toxuculuq sənətinə məxsus əlamətlərlə bağlıdır. Mənası isə dilim, dilimləmək və hissələrə bölməkdir.

Azərbaycanda **kilim** toxuculuğunun dərin tarixi var. "Kilim" sözü türkdilli xalqların etimologiyasında çoxşaxəli və semantik

çalarların qədim nümunələri ilə zəngindir. Ən maraqlısı isə "kıl" və "im" kəlmələrinin birləşməsindən yaranan "kılim" sözüdür ki, burada "kıl" heyrətə salmaq[35], vurğun etmək, "im" isə damğa, işarə və ya naxış mənasındadır.

Keçirtmə üsulu ilə toxunan nümunələrdən biri də **"ladı"**dır. Ehtimal olunur ki, "ladı" toxuculuğu tərəkəmə türklərinin "ladi" adlı tayfasının adından götürülmüşdür.

Azərbaycan xalçaçılığında texniki baxımdan "dolama" üsulu "keçirtmə" üsulunun varisidir. Sadə və mürəkkəb üsullara ayrılması isə xalçaçılıq sənətində yüksək ustalığın formalaşmasının tarixi bəhrəsidir. Dolama üsulu ilə toxunan və Azərbaycan xalçaçılığı üçün xarakterik olan məşhur nümunələrdən biri **"sumax"**dır. "Sumax" sözünün tayfa mənşəli olduğunu ehtimal etməklə, "mürəkkəb dolama" üsulu ilə xovsuz xalça toxuyan qohum tayfalar arasındakı oxşar və fərqli cəhətlərə varislik nöqteyi-nəzərdən işıq salmaq mümkündür.

Zaman-zaman Azərbaycan coğrafiyasında çeşidli sumax kompozisiyaları toxunmuş və İpək yolu qovşaqlarında geniş yayılmışdır. Qubada, Qusarda, Qarabağda və müxtəlif yerlərdə yaşayan şahsevən və ləzgi tayfaları arasındakı sumax toxuculuğu nəsildən-nəslə ötürülür.

Xovsuz xalçaçılığın geniş yayılmış digər növlərindən biri **"şəddə"** adlanır.

Şəddə toxuculuğu mifoloji yönümlü olub, Azərbaycan türklərinin toxuculuq mədəniyyətinə ezoterik məna çalarları ilə daxil olub. Varislik ənənələrində şəddə toxuculuğu həm də etnoqrafik xüsusiyyətləri ilə zəngindir. Bu ənənələrdə texniki üsullara önəm verən tərəkəmə türkləri bədii cəhətlərdən savayı, şəddənin toxunuşunu əsas götürərək, mistik düşüncələrini nəsildən-nəslə ötürürdülər.

Ənənəvi olaraq, müxtəlif coğrafi məkanlardan, həmçinin tayfa münasibətlərindən qaynaqlanmaqla, şəddə toxuculuğunu "zili", "qayıq", "cecim" və başqa adlarla adlandıran nəsillər də olmuşdur. Amma unutmaq olmaz ki, Azərbaycan xalçaçılığında **"zili"** toxuculuğu müstəqil inkişaf etmişdir. Bəzi tədqiqatçıların fikrincə, bu toxuculuq növünün adı ərəblərin "kölgə" mənasını verən "zili"

---

[35] Kaşqari, M. Divani lüğət-it-Türk. [4 cilddə]. Tərcümə: Ramiz Əsgər. – Bakı, Ozan – 2006 – s. 14.

sözündən götürülüb[36], yaxud da cənnəti simvolizə edən "zill" kəlməsinin sinonimidir[37] lakin "zili"nin tayfa adı olması da inandırıcıdır.

Texniki baxımdan mürəkkəb dolamanın bir nümunəsi də varislik ənənələrində özünəməxsus yer tutan "**vərni**" toxuculuğudur. Vərniləri çox vaxt texniki quruluşundan asılı olmayaraq, "əjdaha" adlı "S"- ə bənzər naxışla tanıyırlar. Vərni toxuculuğu qədim türklərin inanclarında yaşayan ilan və ya əjdaha kimi mifoloji personajlardan qaynaqlanır ki, bu da Muğ və Xata tayfaları arasında "su" kultunu ifadə edir.

**İlmə,** Azərbaycan xalçaçılığında "ilməsalma" və ya "ilməvurma" texnikası ilə toxunan xovlu xalça növünü əmələ gətirən ipin adıdır. İlməvurma üsulunun tarixi dəqiq müəyyənləşməmişdir. Amma bəzi alimlər qoyunçuluq təsərrüfatının təşəkkül tapdığı qədim Azərbaycanı ilməvurma üsulu ilə toxunan toxuculuq nümunələrinin ilkin ocağı kimi göstərirlər.

"İlmə" sözü qədim "il" və "mə" sözlərinin birləşməsindən yaranmışdır. Burada "il" – uzun və uzaq[38] mənasında, "mə" isə ən qədim söz olub, heyvan dilinin elementlərindəndir[39].

İbtidai ilməvurma heyvan dərilərini təqlid etməklə əmələ gəlmiş düyünləmə və ya dolama üsullarıdır. Bu üsullar xalçaçılıq sənətində "türk-ilmə" adı altında yaşadılır və elmi ədəbiyyatda asimmetrik və simmetrik ilmə kimi tanınır.

Bədii cəhətdən xalçaçılığın varislik ənənələrinin əsasları, dissertasiyanın **III fəslində "Azərbaycan xalçaçılığında bədii-ornamental sistemin təməl prinsipləri varislik ənənələrində"** adı altında **"Xalçaçılığımızın bədii əsasları və naxış yaradıcılığında damğalar"** adlı **1-ci paraqrafında** araşdırılır. Və araşdırmalardan məlum olur ki, Azərbaycan xalçaçılığında işarə və naxışlar sistemli bədii anlayışa malikdir. Xalçalarda əks olunanlar isə dekorativ bədii obrazlar şəklində xalçaçılığın əlifbası sayılır. Lakin fəlsəfi nöqteyi-

---

[36] Tağıyeva, R. Azərbaycan xalçası məişətdə / R.Tağıyeva – Bakı: Tutu – 2006 – s. 45.

[37] Шукуров, Ш.М. Искусство и тайна – Москва: Алетейа – 1999 – с. 85.

[38] Süleymenov, O. AZ-YA / O.Süleymenov – Bakı: Şərq-Qərb – 2007 – s. 242.

[39] Musayev, İ. Dil, Yaddaş, Vətən, Vətəndaş // Azərbaycan ensiklopediyası – Bakı: Günəş – 1995 – s. 196.

nəzərdən gözəllik, incəlik, zəriflik və bu kimi estetik dəyərlər bədiiliyin mahiyyətini, yaxud məna yükünü tam şəkildə açmasa da, anlayış kimi, Azərbaycan xalçaçılığında rəng və təsvir məfhumlarının əsasını təşkil etməkdədir. Bu baxımdan xalçaçılıqda varislik probleminin həllində “bədiilik”lə ilkin anlayış qismində rastlaşırıq və müxtəlif sualların həllinə cavab axtarmalı oluruq. Təbii ki, xalçaçılıq sənətinin əsas komponenti kimi, bədiilik daxili quruluşla bağlıdır, onun qaynaqları isə müxtəlifdir. Təsviri sənətdən fərqli olaraq xalçaçılıqda bədii obraz tezliklə hekayələşmir və daha geniş məfhumları özünə cəlb edir. Burada bədii obrazın təbiəti deyil, təsir gücü təbiətləşir. Bu səbəbdən xalçaların ornamental quruluşu bədii ümumiləşmədən fərqlənərək, kodlu və şifrələnmiş mahiyyətini qorumaqla, obyektiv və subyektiv cəhətlər ilə təsvirlənir. Xalçaların sirli məna daşımasının başlıca səbəbi məhz bundadır.

Bu mənada Azərbaycan xalçaçılığının bədii varislik dili təkcə xalçaların naxış quruluşundan ibarət olmayıb, həm də xalqın düşüncə sisteminə məxsus yaddaşını kodlaşdıraraq nəsildən-nəslə ötürdüyü damğa və işarə toplusudur. Həmin toplu isə etalon sayılırdı, toxunulmaz idi. Məhz bunun sayəsində xalça kompozisiyaları qorunurdu və tayfanın həmçinin milli toplumun qəbul etmədiyi elementlərin xalçaya daxil olması mümkün hesab edilmirdi. Lakin yeni tayfa birləşmələrinin və boy ittifaqlarının meydana gəlməsi yeni inkişafa yol açdı və onlar arasında yeni münasibətlər, qarşılıqlı mübadilələr yeni ortaq rəmzlərin meydana gəlməsinə səbəb oldu. Ancaq belə proseslər özbaşına baş vermirdi. İqtisadi və siyasi amillər tayfaların əsas məqsədi hesab edilsə də, inanc və ortaq dil mədəniyyəti olmadan belə ittifaqlar baş tutmurdu, yaxud tezliklə həmin birliklər dağılırdı. İnanc və ortaq mədəniyyəti ifadə edən, dillə deyilən və gözlə görünən damğa və işarə təsvirləri isə ortaqlığın ana xətti kimi qəbul edilirdi.

Bu baxımdan Azərbaycan xalçaçılığında kodlaşdırılmış işarə və damğa cizgiləri nəsildən-nəslə ötürülüb naxışlaşdırılaraq xalçanın bədii quruluşunda üç şəkildə yer alır. Bunlar rəmzi tayfa işarələri, dekorativ fiqur kimi təsvir edilən naxışlar və onqon, totem mənasında birləşmiş damğa təsvirləridir.

**III fəslin 2-ci paraqrafında "Azərbaycan xalçaçılığında damğa və naxış təsvirlərinin bədii etnik xüsusiyyətləri"** adı altında aparılan tədqiqatdan məlum olur ki, damğa və naxışların bədii dili mənbə kimi, əvəzolunmaz sərvətdir və tayfaları ifadə edən hər bir elementin kökü və varis törəmələri vardır. Bu baxımdan tayfalara görə naxış elementlərinin yayılma xüsusiyyətləri və onların bir-birinə oxşar və fərqli cəhətləri Azərbaycan xalçaçılığı üçün xarakterikdir. Eyni zamanda qohumluq və köç qanunları çərçivəsində yaranan bu xüsusiyyətləri həm də Azərbaycanda yaşayan hər tayfaya aid etmək mümkündür.

Əsrlərcə Azərbaycan ərazisində Oğuz boylarının müxtəlif tayfalara ayrılmış nəsilləri geniş mədəni irsə sahib olmuş, böyük təsir gücünə malik xalçaçılıq ənənəsini formalaşdırmışlar. Bayandurlar, bayatlar, qayılar, əfşarlar, qacarlar, zülqədərlər, padarlar, ustacallılar, işamlılar, sor-sorlar, şekyaklar, zəngənələrə, baharlılar, çobanlar, armalular, ossalular, şiryanlar və başqaları sahib olduqları damğa, işarə və kodlu naxışlarını Azərbaycan xalçaçılığının bədii sisteminə daxil etmişlər.

Azərbaycan xalçaçılığının bədii cəhəti onun çoxşaxəli tayfa mədəniyyətlərinin ortaq birləşmə nöqtəsi olması ilə bərabər, həm də yüksək zövqverici və düşündürücü xüsusiyyətlərə malik olmasıdır. Damğa və işarələrə dərin rəğbət isə, sözsüz ki, türklərin tanrı və ata kultuna bağlı olan inancından irəli gəlirdi. Bu səbəbdən ta qədimdən burada yerli xalqla yanaşı, müxtəlif xalqların yaşaması etnoqrafik zənginlik yaratsa da, ortaq türk mədəniyyətinin təsiri daha böyük olmuşdur. İndi Azərbaycanda yaşayan kürd, ləzgi, talış, tat və ərəb əsilli tayfaların toxuduqları xalça məmulatlarında damğa və elementlərin zənginliyi qarşılıqlı müqayisə üçün tədqiqat obyektidir.

Unutmaq olmaz ki, bu coğrafiya xalçaçılıq sənətinin ən qədim məkanı sayılır. Burada müxtəlif tayfa və tayfa birləşmələrinin hərbi-siyasi və ya mədəni-ticari məsələrlə bağlı Azərbaycana gələn axınları yerli mədəniyyətin ağuşuna düşərək qaynayıb-qarışmışdır. Orta əsrlərdən bəri tayfaların diffuziyası qohumluq prinsipləri əsasında baş verdikcə, xalçaçılığa da təsirini göstərirdi. Xalçaçılıqla məşğul olan mühacir tayfalar gəldikləri mühitdə elə bu sənət növü ilə rastlaşırdılar. Onların bir yerdə və ya qonşu olması, müəyyən naxış və yaxud işarəvi

sistemlərə təsir göstərməsi də inanc və kultların eyni kökənli olması ilə əlaqədar baş verirdi. Məhz bu baxımdan Azərbaycan xalçaçılığı özündən daha uzaq areala təsir edəcək prinsiplərə malik idi.

**III fəslin "Azərbaycan xalçaçılığında bədii meyarlar inanc qaynaqlarında"** adlı **3-cü paraqrafında** aparılan tədqiqatlar xalçaçılığımızdakı naxışlar sisteminin həyata bağlılığını və mənəvi meyarlarını araşdırır. Hər iki amil bədii təfəkkür anlayışını mərkəzə almaqla Azərbaycan xalçaçılığında başlıca rol oynamaqdadır. Bu baxımdan Azərbaycan türklərinin inam və fikir sistemində mühit anlayışı yer və göydən ibarət olmuşdur və bu iki ünsür azərbaycanlıların qədim tanrıçılıq inamından qaynaqlanaraq kosmoqonik düşüncəsində, həm də xalça naxışlarının bədii quruluşunda xüsusi yer tutmuşdur.

Əsrlərcə xalçaların bədii tərtibatında ara sahəni göy-kainat kimi təsəvvür edən əcdadlar yaradıcı aləmi ifadə edən müxtəlif tərkibli kosmoqonik elementlərdən də istifadə etməklə tanrının bütün varlıqlardan üstün olduğunu bildirirdilər. Bu səbəbdən yer, göy, günəş, ay və ulduzların stilizə olunmuş mücərrəd şəkilli təsvirləri xalçaların ara sahəsində yerləşdirilirdi. Ancaq məna və məzmununa görə Azərbaycan xalça naxışlarının formalaşmasında bədii amillər xalqın həyat tərzilə bərabər inanclarının qarşılıqlı münasibətindən meydana gəlsə də, onlar bu ünsürləri yaradıcı hesab etmiş lakin onlara ibadət etməmişlər. Bu baxımdan inancları təktanrıcılıq olan türk tayfaları ənənəvi olaraq toxuduqları xalı-xalçaların məişətdə istifadə etdikləri nümunələrində yaradıcı aləmi tərənnüm edən işarə və naxışlardan deyil, yaradıcı varlıqları və təbiət ünsürlərini ifadə edən dekorativ iri göl kimi naxış formalarından istifadə etmişlər.

Bundan başqa xalçaların kompozisiyasında duallıq prinsipləri təbii, həm də xalçaçılıqda bədii baxımdan düşündürücü fakt kimi sabitdir. Xalçaçılıqda ən qədim dövrlərdən bəri gecə və gündüz, xeyr və şər, yuxarı və aşağı və digər bu kimi məna daşıyan dekorativ təsvirlərin bir-birinin yanında verilməsi duallıq prinsiplərini əmələ gətirir və təzadlı naxış yaradıcılığına yol açır.

Belə ki, xalqın yaradıcı aləmə münasibəti və bu münasibətin xalça naxışları kimi kodlaşmış işarəvi rəmzləri zaman-zaman əcdadlarımızın təbiət və məişət həyatına aid stilizə etdikləri naxış

elementlərilə qarşılıqlı şəkildə qaynayıb qarışır, həm də Azərbaycan xalçaçılığının alt qatını formalaşdırır.

Dissertasiya işində **“xalçalarımızda mifoloji bədii obrazlar”**ın açılması, onların bədii varislik ənənələrində tutduğu mövqe də araşdırılır. Və araşdırmalardan məlum olur ki, mifoloji amillər və ya obrazlar xalçaçılıqda toxuma üsullarının ənənəvi mərasimlərindən tutmuş, naxış yaradıcılığına qədər sirayət etmiş məfhumdur. Başqa cür desək, xalçanın bədii köklərinin strukturunu və mifopoetik simvolikasını müəyyənləşdirməkdə mifoloji obrazlar böyük əhəmiyyət daşıyır. Bu baxımdan arxaik ənənələrin özülü kimi, milli mifologiya qədim xalçaçılıq mədəniyyətində etnik-mədəni sistemləri özündə səciyyələndirmək imkanına malikdir.

*“Mif – ümumi ideya ilə ən adi hissi obrazın birbaşa maddi eyniyyətidir”*[40] fikrinə əsaslansaq, xalçaçılıq sənətində mifik təfəkkür hesabına stilizə olunmuş naxış strukturlarının daha qədim dövrdən bəri inkişaf etməsi qənaətinə gələ bilərik.

Milli mifologiyamız poetik dildən fərqli olaraq, xalçanın naxış qurluşunda dünyanı özünəməxsus qanun və vasitələrlə izah edən dinamik və statik işarələr sistemində əks etdirmək xüsusiyyətinə malikdir. Burada naxışlar kompozisiya sistemi əsasında özünün bədii tərkib hissələri ilə qarşılıqlı münasibət üzərində əlaqələnərək səciyyələnir və kosmoqonik, etnoqonik həm də təqvim miflərindən ibarət olmaqla naxış sisteminə daxil olur.

**Nəticədə** dissertasiya işi əsas qənaətlərlə yekunlaşdırılır:

1. Qədim Azərbaycan xalçaçılığının mənşəyini təşkil edən xammalın növləri və onlardan istifadə anlayışının formalaşmasında varislik ənənələrinin təməl prinsipləri tədqiq edildi.

2. Xalçaçılığımızın təşəkkülündə varislik ənənələrinə müvafiq olaraq əmək alətlərinin mənşəyi və “rəng anlayışının formalaşmasında qoyunçuluğun milli etnogenə təsirləri tədqiq olundu.

3. Təbii rəngli iplərin istifadəsindən irəli gələrək qədim xalçaçılığımıza sirayət edən semiotik-bədii düşüncə və onun varislik ənənələrində yer alan rəng kanonlarının mənşəyi tədqiq edildi.

---

[40] Лосев, А.Ф. Мифология // Философская энциклопедия / А.Ф.Лосев – Москва: Советская энциклопедия – 1964. т. III – с. 458.

4. Azərbaycan xalçaçılığının təşəkkülündə texniki anlayışların əsasları, həmçinin dəri, keçə və həsirçilik sənətinin mənşəyi tədqiq olundu.

5. Xovsuz və xovlu xalçaçılığımızda texniki üsulların təkamülü və bu təkamüldən irəli gələrək varislik ənənələrində yer alan palaz, cecim, kilim, ladı, sumax, şəddə, zili və vərni kimi növlərin etno-mədəni mənşəyi, bədii-texniki xüsusiyyətləri və sənətkarlığa təsir göstərən əsas amilləri tədqiq olundu.

6. Azərbaycan xalçaçılığında bədiilik anlayışı və onun təməl prinsiplərini təşkil edən əsas amillər varislik ənənələri prizmasından tədqiq edildi.

7. Azərbaycan xalçaçılığında bədii-texniki xüsusiyyətlərdən irəli gələrək coğrafi mühit və bu mühitdə yerli əhalini xarakterizə edən əsas cəhətlər, qarşılıqlı münasibətlər və onun inkişaf mərhələlərini əks etdirən varislik ənənələri tədqiq olundu.

8. Xalçaçılığımızın semiotik əsaslarını, həmçinin bədii-estetik dəyərlərini formalaşdıran inanc, mif, kosmologiya, tarixilik, həyat hekayələri, məişət və bu kimi amilləri əks etdirən xalı-xalça nümunələrinin varislik ənənələrində yeri və inkişaf prinsipləri tədqiq edildi.

**Dissertasiyanın əsas məzmunu və müddəaları aşağıdakı məqalələrdə əksini tapmışdır:**


1. Muğan xalçaları // Qobustan. № 3. Bakı, 2014, s.64-68.
2. Kristal kimi parlaq, naxış qədər məzmunlu ömür // Elmi xəbərlər. № 1. Qərb Universiteti, Bakı, 2014, s.97-104.
3. Yada daşı, yaxud qırıq xətlərin hikməti // Qobustan. № 3. Bakı, 2016, s.25-28.
4. Naxış yaradıcılığından mədəni irsə // Mədəniyyət.AZ. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. № 325. Bakı, may-iyun 2019, s.42-43.
5. Qədim həsirçilik sənəti // Mədəniyyət.AZ. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. № 328. Bakı, noyabr-dekabr 2019, s.112-115.
6. Ancient beliefs as the source of design characteristics in Azerbaijani carpets // Paradigmata Poznani. № 4. Prague, 2020, p.43-45.

7. Художественное текстильное и ковровое искусство // Colloqium-journal, Warszawa, Polska, № 16. 2022, p.70-72.
8. Azərbaycan xalçalarında mifoloji bədii obrazlar // Axtarışlar – Naxçıvan: Tusi – 2022. № 3 (43), – s.120-124.
9. Şirvanşahlar sarayı memarlığında kodlaşmış elementlər və "quyu" kultu // Şirvanşahlar sarayı: tarix, həqiqətlər, mülahizələr. Elmi-praktik konfrans. Bakı – 7 oktyabr 2015, s.232-247.
10. Düz xətt qaba ağac və ya dirək kultunun işarəsi kimi // III Beynəlxalq Türk Dünyası Araşdırmaları simpoziumu. Bakı - 25-27 may 2016, s.228-232.
11. Xalçalarda Tenqri xan, evren və ox motivləri // Türk dünyasının ortaq dili - naxışlar, I Beynəlxalq simpoziumu. Bakı - 02-03 iyun 2016, s.60-64.
12. Türk halk inancında işık ve ya kurt kultunun desen sanatında simgesel yansıması olarak geometrik yatay-düz ve kesik çizgi // Uluslararası geleneksel sanatlar sempozyumu. Trabzon - 20-21 aprel 2017, s.195-204.
13. Butanın mənşəyi və hikməti // Türk dünyasının ortaq dili – naxışlar, II Beynəlxalq simpoziumu. Bakı - 22-24 may 2017, s.27-30.
14. Клеймо (Тамга) // Culture, civilization, society: paradigms of reserach and trends in interaction //Materials of the IV international scientific conference. Prague - april 28-29, 2018, p.12-15.
15. Türk tayfaları və keçə yurdları // Türk dünyasının ortaq dili – naxışlar, III Beynəlxalq simpoziumu. Bakı - 25-27 oktyabr 2018, s.17-21.

Dissertasiyanın müdafiəsi 28 sentyabr 2023-cü il tarixində saat 11:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Dövlət Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının www.azra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 03 avqust 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14 iyul 2023-cü il
Kağızın formatı: A5
Həcm: 39651
Tiraj: 100